# “AŞİQLİYİN İŞIĞINDA”




Bu günlərdə dəyərli söz adamı, tanınmış şair-pub-lisist, “Kredo” qəzetinin baş redaktoru Əli Rza Xələfli ilə görüşdüm. Həmişəki qaydada hal-əhval tutandan sonra yeni yaradıcılıq uğurlarından danışdıq və məlum oldu ki, Əli Rza Xələflinin yeni kitabı, yəni “Aşiqliyin İşığında” oxucu dünyasına gəlibdir.

Təbii ki, dəyərlimiz Əli Rza Xələflini təbrik etməklə İşimi qurtarmış hesab etmədim. Onun mənə bağışladığı həmin kitabı qısa bir zaman içərisində gözdən keçirtdim. Kitabı oxuyarkən diqqətimi çəkən ilk məqam müəllifin oxuculara ünvanladığı fikir oldu. Müəllif qeyd edir ki: “Hərdən məndən soruşurlar Həzrət Əli aşiqliyin Babək sevgisi üzərinə kölgə salmır ki? Mən də cavab verirəm Bəşəri insanla, milli-əxlaqi dəyər sahibləri, Vətən şəhidləri heç bir məqamda üz-üzə gəlmir, toqquşmurlar.

Onlar əbədi dəyər gücündə həmişə qalibdirlər. Mənim düşüncəmdə Əli İbn Əbu Talib “Nəhcül bəlağə” müəllifi kimi ağıl, məntiq, söz sərrafının ustadıdır. Şərq fəlsəli məktəbinin, hik mət aləminin en qüdrətli bağbanlarından biridir.

Onun söz çəmənzarı zamanlar durduqca ətri, rayihəsi rəngi heç vaxt solmayacaq güllərlə göz oxşayacaq. Əli İbn Əbu Talib şəxsiyyət etibarı ilə də həqiqət tərafdarı olub. Özünün və övladlarının timsalında şəhidliyin yenilməzlik məktəbini yaradıb”.

Sizə də təqdim etdiyim bu sətirlər artıq məndə kitabın məzmunu barəsinde müəyyən bir fikir formalaşdırdı.

Ele həmin o fikirin işığın da da müəllifin “Aşiqliyin işığında (poetik əsərlər) adlandırdığı bu kitabı demək olar ki, həm maraqla, həm də müəyyən mənada öyrənmək anlamında oxudum. Etiraf edim ki, Əli Rza Xələflinin bu aşiqliyi mənim üçün gözlənilməz idi. Ona görə da onun Həzrət Əliyə ünvanlanan misraları içinde xoş duyğular yaratdı və bu sevginin ötəri olmadığına məni həqiqətən inandırdı. Yeri gəlmişken onu da əlave edim ki, bu kitabdakı hər sözün, her fikrin mayasında, arxasında və bütövlüyündə məhz həmin o sevgi dayanır. Yəni Hazrət Əliyə olan səcdə, güvənc, inam, sevgi qərar tutur.

Təbii ki, hər kəsin özel pərəstiş, sevgi ünvanı var və Əli Rza Xələflinin de bu inamı, bu sevgisi həm özəldi, həm də nece deyərlər, saf və gözəldi.

Ona görə də bu kitabın “reyler, düşüncələr bölü mündə verilmiş yazılarda da xüsusi olaraq həmin sevgi, həmin məhəbbət qeyd olunur və ona müxtəlif prizmalardan münasibət bildirilir. Yenə qeyd etmək istəyirəm ki, elə həmin o münasibətlərin özünün də mayasında məhz Əli Rza Xələfli sevgisinin möhtəşəmliyi hakimdi. Ümumiyyətlə isə birmənalı olaraq vurğulamaq yerinə düşər ki, bu kitabda, yəni şair-publisist Əli Rza Xələfli sözünün indiki məqamda bütün təsviri va təqdimi məhz Həzrət Əliyə bir qələm adamının fərdi, həm də bir insanın bütövlükdə aşıbdaşan məhəbbəti sərgilənib.

Əgər həmin söylədiklərimi əyani görmək, tanış olmaq, yaşamaq istəyirsinizsə , mütləq “Aşiqliyin işığın da” kitabını arayıb-axtarın. Onda mənim fikirlərimlə siz də razılaşacaqsınız. Son olaraq şairin bu kitabdakı möhtəşəm duyğularının ifadəsi olan “Hələ dünya bilmir ki” qəsidəsindən bir parçasına diqqət yetirək:

Min illərin təzəsi - təravətsən, ya Əli!
Min dürlü haldan keçən təbiətsən, ya Əli!

Sənsən idrak sahibi - elmin yoli qapısı,
Sən “Nəhcül - bəlağə” sən, söz, hikmətsən, ya Əli!

Nə Allah, nə peyğəmbər, nə hakimsən, nə məhkum,
Fəqət Ərşi - Əlaya bir zinətsən, ya Əli!

Bir qələmdir, bir kağız - qəlbimə işıq göndər
Güc gəlsin varlığıma dəyanətsən ya Əli!

Zülfüqar tək qılınc yox, Əli kimi cəngavər
Haqqın hökmü, qanunu, ədalətsən, ya Əli!

Əfsanəsən dillərdə, adın zirvə, ucalıq,
Əbədi nağıl, dastan, hekayətsən, ya Əli!

Hələ dünya bilmirki, axıracan Əzəlsən
Adəmdən Xətəməcən əlamətsən, ya Əli!

Hər insan öz dilində oxunsa bir kitabdır,
Sən kitablar kitabı-kəramətsən, ya Əli!

“Gənclik nəşriyyatında işıq üzü görmüş “Aşiqliyin İşığında” kitabına “Xoş gəldin!”, müəllifinə isə yeni uğurlar arzu edirəm.

*(“Ədalət” qəzeti, №16, 02 may 2025-ci il)*



***Əbülfət MƏDƏTOĞLU***